**UOT 327**

# TÜRKİYƏNİN XARİCİ SİYASƏTİNDƏ AZƏRBAYCANLA MÜNASİBƏTLƏRİN HƏRBİ-SİYASİ ASPEKTİNİN ƏHƏMİYYƏTİ

**Günel YUSİBOVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 27 dekabr 2022; çapa qəbul edilmişdir: 22 fevral 2023; online-da çap edilmişdir: 30 mart 2023.

Received: 27th of December, 2022; accepted: 22th of February, 2023; published online: 30th of March, 2023.

**Açar sözlər:** *Azərbaycan-Türkiyə münasibətləri, Türkiyənin xarici siyasəti, hərbi-siyasi əlaqələr*

## Giriş

Hər nə qədər klassikləşsə də, Azərbaycan Respublikası öz müstəqilliyini yenidən əldə etdiyi 1991-ci ildə onu ilk tanıyan dövlətin Türkiyə Respublikası olması faktı, yeni dövrdə iki dövlət arasında münasibətlərin inkişaf istiqamətini müəyyən etmək üçün bir işarə olaraq qəbul edilə bilər. Həqiqətən də, aradan keçən otuz ildən artıq dövrdə Azərbaycan dövlətinin xarici siyasətinin bütün istiqamətlərində Türkiyə ilə münasibətlər aparıcı yer tutmuşdur. Siyasi-diplomatik münasibətlərdən, iqtisadi-ticari münasibətlərə, mədəni münasibətlərdən, elm-təhsil və idman sahəsindəki münasibətlərə qədər ictimai həyatın, demək olar ki, bütün sahələrini əhatə edən ikitərəfli münasibətlər, sürətlə inkişaf etmiş və dünyaya örnək olacaq səviyyəyə yüksəlmişdir. Azərbaycan-Türkiyə münasibətlərinin belə inkişaf etməsinin tarixi, dini, etnik bir sıra müəyyənedici amili olsa da, həm Türkiyənin, həm də Azərbaycanın qlobal-regional reallıqlara əsaslanan milli mənafelərinin bu münasibətlərin sürətlə inkişafını qaçınılmaz etməsi bizə elə gəlir ki, ən əsas faktor olaraq nəzərə alınmalıdır.

## Azərbaycan-Türkiyə hərbi-siyasi əlaqələrinin əhəmiyyəti

Türkiyə və Azərbaycanın yerləşdiyi bölgələr (Avrasiya, Yaxın Şərq) və bir sıra alt bölgələr (Aralıq dənizi, Qara dəniz, Xəzər dənizi, Cənubi Qafqaz və s.) tarixin ən qədim dövrlərindən etibarən dünya siyasətində mürəkkəb hərbi-siyasi proseslərlə yadda qalan bölgələr olmuşdur [5, s. 17-18]. Başqa bir ifadə ilə desək, Türkiyə və Azərbaycanın yerləşdiyi bölgələrdə istər bu bölgədə mövcud olan dövlətlər, istərsə də bölgə xaricindəki dövlətlər həmişə hərbi-siyasi, iqtisadi-ticari nüfuz mübarizəsi aparmışlar. Bu gün də, başda ABŞ, Avropa İttifaqı, Rusiya olmaqla, İngiltərə, Çin, İran, Fransa kimi qlobal və bölgə güclərinin öz milli mənafeləri istiqamətində bölgədə nüfuz mübarizəsi apardığını müşahidə edirik. Bu isə Azərbaycan və Türkiyəni öz milli maraqlarını qorumaq üçün, ikitərəfli əlaqələrini təkcə siyasi-diplomatik, iqtisadi-ticari və mədəni sahələrlə məhdudlaşdırmamağı, hərbi münasibətlərini də genişləndirməyi qaçınılmaz edir. Azərbaycanın öz müstəqilliyini əldə etdikdən sonra, xarici siyasətində ən etibarlı tərəfdaş kimi Türkiyəni müəyyən etməsi, bölgəyə maraq göstərən dövlətlərə qarşı öz müstəqilliyini qorumaq

[*] *dissertant, Gəncə Dövlət Universiteti*
e-mail: forget379@gmail.com

üçün, demək olar ki, alternativsiz həmlə olmuşdur. Rusiya-Ermənistan-İran üçlüsü tərəfindən təkcə milli maraqlarına deyil, öz varlığına da ciddi və müntəzəm təhlükə hiss edən Azərbaycan Respublikası, Türkiyə ilə qurduğu güclü hərbi-siyasi bağlar səbəbilə, bu təhlükələrə boyun əyməmiş, işğal edilmiş topraqlarını işğaldan azad edə bilmiş, nəinki Cənubi Qafqazın, dünyanın ən güclü hərbi gücə malik dövlətlərindən birinə çevrilmişdir. Azərbaycan ordusunun Cənubi Qafqazın ən güclü ordusuna çevrilməsində, Türkiyənin verdiyi dəstək aparıcı rol oynamışdır. Bu dəstəyi bir neçə başlıq altında toplamaq mümkündür [4]:

- Silah-sursat dəstəyi;
- Azərbaycanın müdafiə sənayesinin yaradılması;
- Azərbaycan ordusunun ehtiyacı olan zabit heyətinin Türkiyənin müxtəlif hərbi məktəb və akademiyalarında hazırlanması;
- Azərbaycan ordusunun Türkiyənin hərbi sisteminə uyğun yenidən qurulması və təkmilləşdirilməsində, ordunun döyüş bacarığının yüksəldilməsi istiqamətində müntəzəm hərbi təlim dəstəyi;
- İkitərəfli (Türkiyə-Azərbaycan), üçtərəfli (Türkiyə-Azərbaycan-Gürcüstan) və çoxtərəfli (NATO çərçivəsində) təlimlər. Müntəzəmlik kəsb edən belə təlimlər, hərbi qüvvələrin döyüş qabiliyyətini və çatışmazlıqları görmək, ordular arasında inteqrasiya və koordinasiyanı gücləndirmək məqsədi daşıyır.
- Sülhməramlıların Qarabağda fəaliyyətinə nəzarət məqsədi ilə müşahidə missiyası və s.

Yuxarıda qeyd edilənlər iki dövlət arasında hərbi-siyasi münasibətlərin Azərbaycan ordusunun gücləndirilməsi və ölkəmizin müstəqilliyinin, həmçinin milli təhlükəsizliyinin qorunmasına xidmət edən əsas istiqamətlərini təşkil edir. Bu münasibətlər hər keçən il daha da dərinləşir, hərbi gücümüzün nəinki Ermənistan kimi zəif dövlətlərin hərbi imkanlarının önünə keçməsinə səbəb olur, hətta dünyanın əsas hərbi güclərindən birinə çevrilməsində də mühüm faktor olaraq diqqəti cəlb edir.

**Türkiyənin xarici siyasətində Azərbaycan faktorunun əhəmiyyəti**

Azərbaycan üçün Türkiyə nə qədər əhəmiyyətli bir beynəlxalq aktordursa, Türkiyə üçün də Azərbaycan öz xarici siyasətində o dərəcədə mühüm partnyordur. Azərbaycan üçün Türkiyə özünün müstəqilliyinin əsas qarantı kimi önə çıxırsa, Türkiyə üçün də Azərbaycan, özünün xarici siyasətinin reallaşdırılmasının əsas tərəfdaşı kimi əvəzedilməz dövlətdir. Bu gün Cənubi Qafqaz-Xəzər hövzəsi-Mərkəzi Asiya bölgəsi Türkiyənin əsas maraq göstərdiyi bölgədir. Türkiyənin Avropa İttifaqına üzv olmaq cəhdlərinin altmış ildən artıq bir dövr keçməsinə baxmayaraq bir nəticə verməməsi, Ankaranın fərqli bölgələrə yönəlməsinə səbəb olmuşdur. Yeni dövrdə geosiyasi cəhətdən Avrasiyanın mərkəzi sayılan Cənubi Qafqaz-Xəzər hövzəsi-Mərkəzi Asiya bölgəsi tarixi, etnik, dini faktorları da nəzərə aldıqda, Türkiyə üçün öz nüfuz dairəsini genişləndirə biləcək ən səmərəli bölgə olaraq önə çıxır. Çünkü Azərbaycan və Mərkəzi Asiya türk dövlətləri vasitəsilə Türkiyə öz milli maraqlarını reallaşdıra biləcəyi kimi, hətta gələcəkdə bu potensialdan istifadə edərək, keçmişdə sahib olduğu dünyanın aparıcı dövlətlərindən birinə çevrilmə imkanı da əldə edə biləcəkdir. Bütün bunlar Türkiyənin qeyd edilən bölgələrdə qlobal və bölgəsəl prosesləri nəzərə alaraq öz milli maraqlarını həyata keçirmək üçün əvvəlcə təmkinli, son illərdə isə fəal xarici siyasət kursu həyata keçirməsinə səbəb olmuşdur. Belə bir siyasi kursun reallaşdırılmasında aparıcı rol isə şübhəsiz Azərbaycanın üzərinə düşür.

Azərbaycan bir yox, sahib olduğu bir neçə xüsusiyyətinə görə Türkiyə üçün yeni dövrdə onun xarici siyasi kursunun əsas müəyyənedici amilinə çevrilmişdir. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, Türkiyə Sovet İttifaqının dağılmasından ən düzgün və səmərəli istifadə edən dövlət olmuşdur. Türkiyə, öz müstəqilliyini yenidən əldə edən türk

dövlətlərindən fərqli olaraq, bu dövlətlərdən gələn tələblərə və yeni beynəlxalq reallığa hissi reaksiya verməmiş, Azərbaycan başda olmaqla bütün yeni dövlətlərlə qarşılıqlı əlaqələrini realizm zəminində inkişaf etdirməyə meylli olmuşdur. Bu isə Türkiyənin güclü dövlətçilik ənənələrinə malik bir dövlət olmasından irəli gələn bir xüsusiyyəti kimi qəbul edilməli və təəccüb doğurmamalıdır [7, s. 3]. Türkiyə hər şeydən əvvəl, müstəqilliyini yeni əldə edən bütün dövlətlərlə qarşılıqlı münasibətlər qurarkən, Rusiyanı da qıcıqlandırmamağa səy göstərmiş, onun post-sovet məkanında uzun keçmişə malik maraqlarının olduğunu nəzərə almışdır. Buna görə də, istər Cənubi Qafqazda, istərsə də Mərkəzi Asiya bütün xarici siyasət həmlələrini obrazlı desək, yüz ölçüb bir biçərək təmkinlə atmışdır.

Sovet iqtisadi sisteminin çökməsindən məharətlə istifadə edən Türkiyə, başda Rusiya olmaqla, müstəqilliyini yeni əldə edən post-sovet dövlətlərinin əsas ticari partnyoruna çevrilmişdir. Bu isə Türkiyənin iqtisadi potensiyalını artırmış və onun inkişafını sürətləndirmiş, xarici siyasətinə dinamizm qazandırmışdır.

Türkiyənin Qərb dövlətləri ilə münasibətləri, NATO-nun üzvü olması, onun bölgədə daha rahat hərəkət etməsinə təsir göstərən bir digər faktor olmuşdur. Çünki Qərbin maraq dairəsində duran əsas məsələlərdən birincisi, Rusiyanın əhali dairəsinin sürətlə kiçildilməsi və onun Cənubi Qafqaz və Mərkəzi Asiyadan sıxışdırılıb çıxarılması idi. Eyni zamanda Azərbaycan, Qazaxıstan və Türkmənistanın malik olduğu təbii enerji resursları Qərbin iştahasını qabardan başqa bir amildir. Bütün bunlar, bölgəyə qonşu olan, demokratik rejimə malik, İranın bölgəyə yayılmasının qarşısını ala biləcək dini-etnik xüsusiyyətləri ilə Türkiyə, həm də müstəqilliyini yeni əldə edən bölgə dövlətləri üçün bir rol-model olmasını asanlaşdırırdı [3].

Türkiyə önünə çıxan bu fürsəti dəyərləndirməyə qərar verərkən və bu istiqamətdə xarici siyasət kursunu müəyyən edib həyata keçirərkən, heç şübhəsiz, ən etibarlı tərəfdaş kimi Azərbaycanı seçmişdir. Azərbaycan Sovetlər Birliyinin dağılma prosesində ən fəal dövlət olduğu üçün, Moskva tərəfindən cəzalandırılmış və torpaqlarının iyirmi faizi Ermənistan tərəfindən işğala məruz qalmışdır. İran üçün də müstəqil Azərbaycan öz varlığı üçün təhdid ünsürü olaraq qəbul edildiyi üçün ərazi bütövlüyünü qorumaq, işğal edilmiş torpaqlarını geri qaytarmaq, parçalanma təhlükəsinin qarşısını almaq, qonşulardan gələn təhdid və təhlükələri bərtərəf etmək üçün Azərbaycana da Türkiyə kimi etibarlı bir dayan nöqtəsi lazımdır. Məhz bu və bir sıra başqa faktorlar Türkiyə-Azərbaycan münasibətlərinin möhkəm təməllər üzərində qurulmasına və sürətlə inkişaf edərək güclənməsinə səbəb olmuşdur.

Türkiyə üçün Azərbaycanın mövcudluğu əhəmiyyətli olduğu qədər, Cənubi Qafqazın ən böyük dövləti, əməkdaşlıq edə biləcəyi ən etibarlı tərəfdaş kimi də əhəmiyyət kəsb etmişdir. Təbi sərvətləri ilə Türkiyənin enerji ehtiyacını qarşılamaqda güclü potensiala malik olan Azərbaycan, öz geosiyasi mövqeyi ilə bölgədə nüfuzunu genişləndirmək istəyən Türkiyə üçün əsas tərəfdaş, nəqliyyat qovşağı olacaq dövlət kimi, həm də Mərkəzi Asiyaya açılan qapı rolunu oynayacaq ən əlverişli dövlət olmuşdur. Təsadüfi deyil ki, bu gün Azərbaycan təkcə təbii sərvətləri ilə deyil, həm də nəqliyyat dəhlizlərinin keçdiyi ölkə kimi mühüm əhəmiyyətə malikdir. Bütün bunlar Türkiyənin Azərbaycana öz xarici siyasət kursunda əsas tərəfdaş kimi yer verməsinə gətirib çıxarmışdır. İki dövlət arasında qurulan münasibətlər bu gün o qədər yüksək səviyyəyə çatmışdır ki, artıq Cənubi Qafqazda gedən heç bir proses bu iki dövlətin razılığı olmadan ya da onların maraqlarına zidd olaraq reallaşa bilməz. Bu gün Azərbaycan-Türkiyə münasibətləri, Mərkəzi Asiyanın türksoylu dövlətləri üçün də ilham mənbəyinə çevrilmişdir. Belə ki, son illərdə Türkiyə və Azərbaycan başda olmaqla digər türk dövlətləri arasında münasibətlər əvvəlki dövrlərdə olmadığı qədər yüksək səviyyəyə çatmışdır. Həm də əsas bir məqamı da qeyd etmək lazımdır ki, Türkiyə  və digər türk dövlətləri arasında münsibətlər təkcə genişlənmir, həm də institusionallaşır [9]. Bir sıra mexanizmlər və təşkilatlar vasitəsilə, münasibətlər artıq qurumsal

xarakter kəsb etməyə başlamışdır. Bu isə Türkiyənin bölgədə nüfuzunu artırdığı kimi, bölgə dövlətlərinin öz maraqlarını qorumasına güclü dəstək verir. Heç şübhəsiz, bundan sonra da Türk dövlətləri arasında münasibətlərin inkişafının dinamikasını Türkiyə-Azərbaycan münasibətləri müəyyən edəcəkdir.

**Türkiyənin xarici siyasətində Azərbaycanla münasibətlərin hərbi-siyasi aspekti**

Mustafa Kamal Atatürkün 18 oktyabr 1921-ci il tarixdə Azərbaycanın Ankaradaki səfirliyindəki nitqində qeyd etdiyi, "Azerbaycan, Asya'daki kardeş hükümet ve milletler için bir temas ve kavuşma noktasıdır. Azerbaycan'ın bu mevki-i mahsusu, vazifesini pek mühim kılmaktadır (Azərbaycan, Asiyadakı qardaş hökumət və millətlər üçün bir təmas və qovuşma nöqtəsidir. Azərbaycanın bu özünəməxsus mövqeyi onun vəzifəsini əhəmiyyətli etməkdədir)" [12, s. 590]. Atatürkün bu cümləsi ilə, Türkiyənin Azərbaycana verdiyi dəyəri lakonik şəkildə özündə əks etdirməkdədir. Beləliklə, bir-biri üçün qarşılıqlı əhəmiyyət kəsb edən iki ölkə, 1992-ci ildən ümumilikdə yaxşı münasibətlər qurmuşlar ki, getdikcə inkişaf edən bu münasibətlər kontekstində Türkiyə-Azərbaycan strateji tərəfdaşlığından danışmaq mümkündür. Təbii qazı və nefti ilə qlobal və regional güclərin mərkəzində olan Azərbaycanın Türkiyə ilə münasibətlərində iki xalqın tarixi əlaqələri və etnik dini yaxınlığı həlledici rol oynayır [14, s. 574]. Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan ərazilərinin iyirmi faizini ələ keçirməsi, Türkiyənin Azərbaycana olan hərbi-siyasi dəstəyinin əsas səbəbi olmuşdur. Həmin dövrdə Türkiyənin prezidenti olan Turqut Özal 1993-cü ildə Azərbaycana etdiyi səfəri zamanı ermənilərin Dağlıq Qarabağ münaqişəsində müharibəni dayandırmayacağı təqdirdə Türkiyə ilə Azərbaycan arasında hərbi ittifaqın yaradılmasının zəruriliyini qeyd edərək, əslində yeni dövrdə iki dövlət arasında münasibətlərdə hərbi əməkdaşlığın da yer alacağını göstərmişdir [10, s. 17]. Təkcə T.Özal yox, həmin dövrün bir sıra siyasətçiləri, millət vəkilləri Türkiyənin Azərbaycana hərbi yardım etməsinin vacibliyini qeyd etmişdir [12, s. 589]. Lakin şübhəçi və çəkingən xarici siyasət xəttindən xilas ola bilməyən Dəmirəl hökuməti, o günlərdə Azərbaycana hərbi qüvvə və digər hərbi yardımların gündəliklərində olmadığını qeyd etmişdir [1, s. 11].

Türkiyə Dağlıq Qarabağ münaqişəsini Cənubi Qafqazda sülh və sabitliyin yaranmasına mane olan amil kimi görmüşdür [8, s. 37].

Daha geniş bir coğrafi ərazi olaraq Avrasiya materikini ələ alsaq, bu coğrafiyanın ilk başda enerji sahəsi və ümumi olaraq mövcud olan əhəmiyyəti, Rusiya, ABŞ, Çin, Aİ və İran başda olmaqla, qlobal və regional aktorların nüfuz mübarizəsini təhrik etməkdədir [6, s. 601]. Bu nöqteyi-nəzərdən, həmin mübarizə təsirinə məruz qalmamaq və ya minimalizə etmək üçün təhlükələrə qarşı həssas olan ölkələr birgə hərəkət etməlidir. Bu birgə fəaliyyət geostrateji baxımdan xaricə qarşı müdafiə mexanizmi qurmaqla yanaşı, daxili təhlükəsizliyin gücləndirilməsini də əhatə etməlidir. Belə ki, müstəqilliyinin ilk illərində Azərbaycanda mövcud olan və xaosa səbəb olan bir sıra pərakəndə hərbi-siyasi qruplaşmaların mövcud olması [13, s. 383] ölkənin daxili sabitliyi üçün ciddi təhlükə törətmişdir. Belə təhdid və təhlükələr, Türkiyənin regiona olan milli maraqlarının reallaşdırılmasını ləngidən əsas maneələr olaraq qəbul edilmişdir. Başqa bir ifadə ilə desək, Azərbaycanın hərbi cəhətdən güclənməsi, həm daxili sabitlik, həm də bölgədə sülh və əmin-amanlığın təsis edilməsi məqsədinə xidmət edəcəkdi. Əks halda Türkiyə üçün xaosun hökm sürdüyü coğrafiyada bölgəsəl aktor kimi önə çıxmaq və gələcəkdə burada lider dövlətə çevrilmək imkanı zəif ehtimaldır.

Türkiyənin, Azərbaycanla siyasi-diplomatik, iqtisadi və mədən-təhsil münasibətlərini inkişaf etdirib, hərbi sahəni bu münasibətlərin xaricində tutması, bir müddət sonra əldə etdiyi qazanımları da itirməsi ilə nəticələnə bilərdi. Tovuz hadisələri belə bir riskin barış şəkildə özünü göstərdiyi əyani bir sübutdur. Bu hadisələr zamanı, Azərbaycan ordusunun zəif olması nəticəsində, Tovuz rayonunun ermənilər tərəfindən işğal olunması

ilə nəticələnə bilərdi ki, belə olan halda Türkiyə və Qərbin, bölgədə uzun illərdir əldə etdiyi qazanclar itib gedə bilərdi. Türkiyənin də dəstəyi ilə uzun illərdir modernizə edilən və silah-sursat cəhətdən də yüksək səviyyədə təmin edilən Azərbaycan ordusu, bu hücumun qarşısını aldı, hətta əks hücuma keçərək, bir sıra nöqtələri nəzarətə götürdü. Məhz burada Türkiyənin Azərbaycana göstərdiyi hərbi dəstəyin mahiyyəti özünü göstərdi. 1992-ci ildə iki dövlət arasında imzalanan ilk müqavilə ilə, 1994-cü ildən etibarən hərbi münasibətlər sürətlə inkişaf etməyə başlamışdır.

Cənubi Qafqazın aparıcı ölkəsi olan Azərbaycan ilə Türkiyə arasında ilk imzalanan saziş 11 avqust 1992-ci il tarixli beş illik dövrü əhatə edən "Hərbi Əməkdaşlıq" haqqında Sazişdir ki, bu saziş TBMM tərəfindən təxminən səkkiz ay sonra ratfikasiya edilmişdir [11, s. 1].

Bu müqavilə iki dövlət arasında bu gün strateji tərəfdaşlıq səviyyəsinə çıxan hərbi münasibətlərin ilk halqasını təşkil etmiş, sonrakı illərdə iki dövlət arasında Azərbaycanın hərbi potensialını artıran bir sıra müqavilələr imzalanmışdır. Bu müqavilələr nəticəsində Türkiyə özünün bölgədəki milli maraqlarını reallaşdırmaq üçün lazımi mühiti yarada bilmişdir.

İki ölkə arasındakı hərbi əlaqələrin inkişafına təkan verən ən önəmli amillərdən biri də birgə hərbi təlimlərin keçirilməsidir. Buna misal olaraq, "EFES", "Anadolu Ankası", "Qış Təlimi", "Anadolu Ulduzu", "Erciyes-2019", "Anadolu Qartalı", "Mustafa Kamal Atatürk", "Sarsılmaz Qardaşlıq", "TurAz Qartalı - 2019" və bu il keçiriləcək "Heydər Əliyev – 2020" təlimlərini göstərmək olar. Azərbaycan ilə Türkiyə arasında keçirilən birgə hərbi təlimlər təkcə Azərbaycan Ordusunun güclənməsinə deyil, eyni zamanda, bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına yönəlib.

Bundan əlavə, Türkiyə Silahlı Qüvvələri Azərbaycanın NATO ilə əməkdaşlığının inkişafına da öz töhfəsini verir. Belə ki, Azərbaycan sülhməramlıları Türkiyə hərbi kontingentinin tərkibində 1998-2008-ci illərdə Kosovoda (KFOR) və 2002-2014-cü illərdə Əfqanıstanda (İSAF) keçirilmiş əməliyyatlarda, 2015-ci ildən bu günədək isə NATO-nun rəhbərliyi altında keçirilən "Qətiyyətli Dəstək" Missiyasında iştirak edir. Bununla yanaşı, NATO-nun Sülh Naminə Elm Proqramı çərçivəsində Azərbaycan və Türkiyə mütəxəssisləri üçün "Kibertəhlükəsizlik üzrə təkmilləşdirmə" kursları keçirilir [2].

**Nəticə**

Bölgədə müharibə, münaqişə və blokada şəraitinin hökm sürməsi, Türkiyənin burada maraqlarını qorumasına ciddi maneə törədə bilərdi. Məhz buna görə də, Türkiyə həmişə Azərbaycanın hərbi cəhətdən güclənməsində maraqlı olmuş, bu istiqamətdə son illərdə dəstəyini daha da artırmışdır.

Aparılan təhlillər onu göstərir ki, Azərbaycanla münasibətlərin hərbi aspekti, bu ölkənin Cənubi Qafqaz və Xəzər hövzəsi dövlətləri ilə münasibətlərinin şaxələndirilməsi və genişləndirilməsi kontekstində qiymətləndirilməlidir. Çünki, hərbi cəhətdən zəif Azərbaycan, başqa dövlətlərin daim hədəfində olacaq və onun daxili sabitliyi təhlükə altında olacaqdır. Bu isə Türkiyənin bu bölgədə arzuladığı xarici xiyasət kursunu həyata keçirməsinə mane olacaqdır. Ona görə də, Türkiyə Azərbaycanla hərbi əməkdaşlıqda və ikincinin hərbi cəhətdən güclənməsində maraqlı olmuşdur.

## ƏDƏBİYYAT

1. Azerbaycan'a Yardım Yok // Cumhuriyet. 1992, 20 mart, s. 11.
2. Azərbaycan ilə Türkiyə arasında hərbi əlaqələr yüksələn xətlə inkişaf edir: [Elektron mənbə] // "İki sahil" qəzeti, 2020, fevral 28. (https://ikisahil.az/post/147387-azerbaycan-ile-Turkey-arasinda-herbi-elaqeler-yukselen-xetle-inkishaf-edir)

3. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı bölgədə təhlükəsizliyin təmini baxımından vacibdir // "İki sahil" qəzeti. 2021, Aprel 8. (https://ikisahil.az/post/210037-azerbaycan-Turkey-herbi-emekdashligi-bolgede-tehlukesizliyin-temini-baximindan-vacibdir)
4. Bağırova G. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf dinamikası (https://geostrategiya.az/news.php?id=12)
5. Çetinkaya S.G. Türkiye-Azerbaycan İlişkilerinin Askeri Boyutu ve Jandarma Merkezli Yardımlar (1992-2014) // Şeyh Edebali Universiteti Sosyal Bilimler Jurnalı, 2020. №5/1, s.15-40.
6. Haydaroğlu C. Türkiye Avrasya İlişkileri Bağlamında Enerjinin Jeopolitiği, İstanbul: Efe Akademi, 2018, s. 595-618.
7. İsmayılova S. Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı bölgədə sülhə və sabitliyə xidmət edir // Xalq, 2020, 11 sentyabr, s. 3.
8. Ministry of Foreign Affairs of the Republic of Azerbaijan Department for Analysis and Strategic Studies, 2017, s. 37.
9. Nüsrətoğlu T. Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı bütün Türk Respublikaları üçün modeldir: (https://www.trt.net.tr/azerbaycan/qafqazin-gund-mi/2021/02/11/az-rbaycan-turkiy-h-rbi-m-kdasligi-butun-turk-respublikalari-ucun-modeldir-1581059)
10. Özal, Bakü'ye Askeri İttifak Önerdi // Cumhuriyet, 1993. 15 aprel, s. 17.
11. Türkiye Cumhuriyeti Hükümeti ile Azerbaycan Cumhuriyeti Hükümeti Arasında Askeri Eğitim İşbirliği Anlaşmasının Onaylanmasının Uygun Bulunduğuna Dair Kanun // "Resmi" qəzet, 1993, 21 aprel, s.1.
12. TBMM Tutanak Jurnalı, Dönem: 19, IV. Cild, Iclas: 44, 1992, 4 Mart.
13. TBMM Tutanak Jurnalı, Dönem: 19, VII. Cild, İclas: 55, 1992, 19 Mart.
14. Yalçınkaya A. XXI. Yüzyılda Küresel ve Bölgesel Aktörler Bağlamında Türk Dış Politikası, İstanbul: Efe Akademi, 2018. 640 s.

***Summary***

***Gunel Yusibova***

***The Significance of the Military and Political Aspect of Relations with Azerbaijan in Turkey's Foreign Policy***

No matter how classic it is, the fact that the Republic of Turkey was the first state to recognize Azerbaijan in 1991, when it regained its independence, can be taken as a sign to determine the direction of development of relations between the two states in the new era. Indeed, in the more than thirty years that have passed, relations with Turkey have taken a leading place in all directions of the foreign policy of the Azerbaijan state.

In the regions where Turkey and Azerbaijan are located, both the states existing in this region and the states outside the region have always fought for military-political, economic-commercial influence. Even today, we observe that global and regional powers such as the United States, the European Union, Russia, England, China, Iran, and France are fighting for influence in the region in line with their national interests. This makes it inevitable for Azerbaijan and Turkey not to limit their bilateral relations only to the political-diplomatic, economic-commercial and cultural fields, but also to expand their military relations in order to protect their national interests.

Azerbaijan has become the main determining factor of its foreign political course in the new era for Turkey due to its several characteristics.

In this article, the importance of Azerbaijan-Turkey relations for both countries, the Azerbaijan factor in Turkey's foreign policy course in the new era, as well as the military-political aspect of the relations between the two countries have been studied. These goals have been extensively analyzed in the relations between the two states in the last thirty years, the effects of the processes taking place in the world and in the region on the development of these relations, the driving forces of the expansion of the military-political relations between the two states and their rise to the strategic level. For this purpose, scientific studies, news, electronic resources and certain statistical indicators were used.

The conducted analyzes show that the military aspect of relations with Azerbaijan should be evaluated in the context of the diversification and expansion of this country's relations with the states of the

Caucasus and the Caspian basin. Because militarily weak Azerbaijan will be constantly targeted by other countries and its internal stability will be in danger. This will prevent Turkey from implementing its desired course of foreign policy in this region. Therefore, Turkey has been interested in military cooperation with Azerbaijan and the military strengthening of the latter.

***Keywords:*** *Azerbaijan-Turkey relations, Turkey's foreign policy, military-political relations*

***Резюме***

***Гюнель Юсибова***

***Значение военно-политического аспекта отношений с Азербайджаном во внешней политике Турции***

Каким бы классическим это ни было, тот факт, что Турецкая Республика была первым государством, признавшим Азербайджан в 1991 году, когда он восстановил свою независимость, можно воспринимать как знак, определяющий направление развития отношений между двумя государствами в новую эпоху. Действительно, за прошедшие более чем тридцать лет отношения с Турцией заняли ведущее место во всех направлениях внешней политики азербайджанского государства.

В регионах, где расположены Турция и Азербайджан, как государства, существующие в этом регионе, так и государства за пределами региона всегда боролись за военно-политическое, экономико-коммерческое влияние. Даже сегодня мы наблюдаем, что глобальные и региональные державы, такие как Соединенные Штаты, Европейский союз, Россия, Англия, Китай, Иран и Франция, борются за влияние в регионе в соответствии со своими национальными интересами. Это делает неизбежным для Азербайджана и Турции не ограничивать свои двусторонние отношения только политико-дипломатической, экономико-торговой и культурной сферами, но и расширять свои военные отношения в целях защиты своих национальных интересов.

Азербайджан стал главным определяющим фактором внешнеполитического курса Турции в новую эпоху благодаря нескольким своим характеристикам.

В этой статье была изучена важность азербайджано-турецких отношений для обеих стран, азербайджанский фактор во внешнеполитическом курсе Турции в новую эпоху, а также военно-политический аспект отношений между двумя странами. Эти цели были тщательно проанализированы в отношениях между двумя государствами за последние тридцать лет, влияние процессов, происходящих в мире и в регионе, на развитие этих отношений, движущие силы расширения военно-политических отношений между двумя государствами и их подъема до стратегический уровень. Для этой цели были использованы научные исследования, новости, электронные ресурсы и определенные статистические показатели.

Проведенные анализы показывают, что военный аспект отношений с Азербайджаном следует оценивать в контексте диверсификации и расширения отношений этой страны с государствами Кавказа и Каспийского бассейна. Потому что слабый в военном отношении Азербайджан будет постоянно подвергаться нападкам со стороны других стран, и его внутренняя стабильность окажется под угрозой. Это помешает Турции реализовать желаемый курс внешней политики в этом регионе. Поэтому Турция была заинтересована в военном сотрудничестве с Азербайджаном и военном укреплении последнего.

***Ключевые слова:*** *Азербайджано-турецкие отношения, внешняя политика Турции, военно-политические отношения*

Redaksiya heyətinin üzvü Rüstəmova Aybəniz Vilayət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.